Memarlıq inciləri

# ŞƏBƏKƏLƏR



**Müasir dövrdə də ən gözəl memarlıq elementləri sayılan və qədim zamanlardan başlayaraq bugünümüzə qədər gəlib çatmış şəbəkələrdən istifadəyə böyük maraq var.**

Şəbəkə bitkin bir sənət əsəri olaraq bütün zamanların memarlığında ən çətin və yüksək zövq tələb edən elementlərdən sayılıb. Azərbaycanda bu işlə davamlı məşğul olan, onun inkişafına və yayılmasına xidmət edən adla tanınan şəbəkə ustaları, memarları da az deyil.

Şəbəkə sözü bir neçə anlamda təqdim olunsa da, əsas mənası ağacdan, daşdan, metaldan düzəldilmiş hörgü, barmaqlıq, ornament deməkdir. Unutmayaq ki, şəbəkələr zamanların sınaqlarında cilalana-cilalana bugünümüzədək gəlib çıxıblar. Ona görə də "incələnib-incəliblər", yadigarlara çevriliblər.

Hər naxışda bir sirr yatır. Hər bəzək bir əlin nazından "cana gəlib" - canlanıb. Məhz bu dəyərlərinə görə də paytaxtımızın ən qədim guşəsi, tarixin yadigarı İçərişəhərin nadir incisinə çevrilib.







***M.NƏRİMANOĞLU,***
***A.MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 4 fevral.- S.10.